AZƏRBAYCAN BAROMETRİ №11 (15)

Dekabr / 2020

STM

# 2020-Cİ İLİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ NÖVBƏTİ İLDƏN GÖZLƏNTİLƏR

## ANALİTİK HESABAT

2021

2020

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ

# Sosial Tədqiqatlar Mərkəzi haqqında

Sosial Tədqiqatlar Mərkəzi (STM) Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanı ilə yaradılmışdır.

STM ictimai münasibətlərin inkişaf dinamikasını sistemli təhlil edən, bu sahədə mövcud tendensiyaları müəyyənləşdirən və dəyişiklikləri proqnozlaşdıran, həmin dəyişikliklərin cəmiyyətə mümkün təsirlərini araşdıran, müasir informasiya texnologiyaları və elmi yanaşmalar tətbiq edilməklə ictimai fikrin öyrənilməsini və sosial tədqiqatlar aparılmasını təmin edən, həyata keçirdiyi elmi-analitik təhlilin nəticələrini dövlət orqanlarına təqdim edən publik hüquqi şəxsdir.

**SOSİAL TƏDQİQATLAR MƏRKƏZİ**

AZƏRBAYCAN BAROMETRİ
On beşinci buraxılış

Dekabr 2020

# 2020-Cİ İLİN QİYMƏTLƏNDİRİLMƏSİ VƏ NÖVBƏTİ İLDƏN GÖZLƏNTİLƏR

ANALİTİK HESABAT

**Tədqiqat qrupu:**
İctimai rəyin öyrənilməsi departamenti

Bakı - 2020

“Azərbaycan barometri” jurnalı 06 avqust 2019-cu il tarixində
Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində
4247 nömrəsi ilə mətbu nəşrlərin reyestrinə daxil edilib.

**Redaktor:**
Aqşin Məmmədov,
*filologiya üzrə fəlsəfə doktoru*

**Qrafik dizaynerlər:**
Qurban Cəlilov
Babək Cəfər

**Ünvan:**
Azərbaycan Respublikası, AZ 1006, Bakı şəhəri,
Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küçəsi, 18.

**Telefon:** (+994 12) 510-70-78
(+994 12) 510-23-75
(+994 12) 510-70-69

**E-poçt:** info@stm.az
**İnternet ünvanı:** www.stm.az

Çapa imzalanıb:
Fiziki çap vərəqi:
Sifariş:
Tiraj:

© Sosial Tədqiqatlar Mərkəzi, 2020

ŞƏRQ-QƏRB
“Şərq-Qərb” ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17.
Tel.: (+99412) 374 83 43
(+99412) 374 73 84

# MÜNDƏRİCAT


GİRİŞ....................4

Sorğunun metodoloji prinsipləri....................6

Respondentlərin sosial-demoqrafik göstəriciləri....................7

I. 2020-ci ildə yaddaqalan hadisələr....................8

II. 2020-ci ilin qiymətləndirilməsi....................8

III.2020-ci ildən məmnunluq səviyyəsi....................9

IV. 2020-ci ildə insanları narahat edən məsələlər....................10

V. Təhsilin keyfiyyətinə münasibət və gözləntilər....................12

VI. COVID-19-un təsirləri və vaksinasiyaya münasibət....................13

VII. 2021-ci ildən gözləntilər....................14

NƏTİCƏ....................16




STM

# GİRİŞ

2020-ci il ölkə həyatında mühüm hadisələrlə yadda qaldı. Dünyanı bürüyən koronavirus pandemiyası səbəbindən sosial-iqtisadi çətinliklərlə başlayan il işğal altındakı torpaqların azad edilməsi və regionda milli maraqlara uyğun yeni geosiyasi reallığın yaranması baxımından hərbi-siyasi zəfərlə yekunlaşdı.

Dünya bazarında neft qiymətlərinin sürətlə ucuzlaşması, qlobal təhdidə çevrilmiş pandemiyanın dərinləşən sosial-iqtisadi nəticələri, eləcə də Ermənistanın hərbi təxribatları və genişmiqyaslı hərbi əməliyyatlar fonunda yaranan vəziyyətdən Azərbaycan dövləti uğurla çıxmağı bacardı. Azərbaycan pandemiya ilə mübarizə çərçivəsində insanların iş və təhsil fəaliyyəti, sərbəst hərəkəti ilə bağlı xüsusi rejimin tətbiqi barədə çevik qərar qəbul edib, erkən icra edən ölkələr sırasında oldu. Dövlət başçısının ictimai sağlamlıq amilini iqtisadi fəallıq amilindən üstün tutması pandemiya ilə mübarizədə antiböhran siyasətinin sosialyönümlü olmasını şərtləndirdi. Sözügedən siyasətin icrası çərçivəsində pandemiyadan təsirlənən müxtəlif əhali seqmentləri üzrə ümumilikdə 4,8 milyon insanı, eləcə də sahibkarlıq subyektlərini əhatə edən sosial-iqtisadi dəstək paketləri icra olundu. Dəstək tədbirlərinin, xüsusilə də işsiz kimi qeydə alınan şəxslərə verilən birdəfəlik yardımların məbləği dünya üzrə analoji orta göstəricidən iki dəfə yuxarı oldu.

Azərbaycan pandemiya qarşısında “özünütəcrid” siyasəti yerinə ölkələrarası əməkdaşlığın təşviqi məqsədilə onlayn görüşlər keçirən və beynəlxalq həmrəylik mesajları verən ilk ölkələr sırasında oldu. Bu çərçivədə Türk Şurasının, Qoşulmama Hərəkatının və Şərq Tərəfdaşlığı ölkələrinin görüş və sammitləri həyata keçirildi. Azərbaycan Prezidentinin təşəbbüsü ilə BMT Baş Assambleyasının pandemiya ilə mübarizəyə həsr olunmuş xüsusi sessiyasının keçirilməsinin 130-dək dövlət tərəfindən dəstəklənməsi 2020-ci ilə dair əhəmiyyətli hadisələr sırasındadır. Azərbaycan bu istiqamətdə dəstəkləyici ölkə mövqeyindən çıxış edərək 30-dan çox ölkəyə, təşkilata könüllü humanitar və maliyyə yardımı göstərməklə, pandemiya ilə mübarizəyə dəstək üçün Beynəlxalq Valyuta Fonduna üz tutan 90 ölkə, eləcə də Dünya Bankına müraciət edən 60 ölkə arasında yer almadı. Pandemiya ilə mübarizə çərçivəsində Azərbaycan Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən nümunəvi ölkə kimi qiymətləndirildi. Ümumiyyətlə, pandemiya ilə mübarizə çərçivəsində ölkəmizdə həyata keçirilən tədbirlərin müqayisəli təhlilləri aparılan siyasətin beynəlxalq praktika ilə uzlaşdığını və tədbirlərin icra xronologiyası baxımından Azərbaycanın əksər hallarda dünya ölkələrini qabaqladığını göstərdi.

2020-ci il eyni zamanda ötən illərdən başlayaraq idarəçilikdə yeni paradiqmaya keçid, aparılan çoxşaxəli islahatlara hüquqi dəstək və adekvatlıq baxımından yerli özünüidarəetmə orqanlarına keçirilən seçkilərin ardından qanunvericilik hakimiyyətinin yeni konfiqurasiyada fəaliyyəti ilə yadda qaldı. Cari ilin fevral ayında keçirilən növbədənkənar parlament seçkiləri və Milli Məclisin yeni tərkibdə fəaliyyəti hakimiyyətin bu qolunun üzərinə düşən yeni vəzifələrin icrasından irəli gəlməklə, siyasi həyatda yeni keyfiyyət müstəvisinə keçidi hədəflədi. Ölkənin siyasi həyatındakı müxalif partiya mənsublarının parlamentin rəhbər vəzifələrində təmsil olunması, siyasi mühitin sağlam zəmin üzərində canlandırılması baxımından siyasi partiya rəhbərləri ilə görüşlər və partiyalararası dialoqun formalaşdırılması təşəbbüsü ilin əlamətdar hadisələrindən oldu. Xüsusilə də, Vətən müharibəsi dövründə həmin siyasi partiyalar Ali Baş Komandanın ətrafında vahid mövqedə birləşərək ərazi bütövlüyümüzün bərpası uğrunda mübarizədə həmrəylik nümayiş etdirdilər.

Prezident İlham Əliyevin həyata keçirdiyi güclü dövlət, güclü ordu strategiyası nəticəsində 2020-ci ilin sonlarına doğru ölkə tarixinə ən qürurverici hadisələrdən biri – Vətən müharibəsi kimi həkk olunan genişmiqyaslı hərbi əməliyyatların başlaması və Ermənistanın işğalındakı torpaqların azad edilməsi oldu. İyul ayında dövlət sərhədinin Tovuz rayonu istiqamətində Ermənistanın hərbi cəhdlərinin qarşısının uğurla alınmasından sonra sentyabr ayında təmas xətti boyunca genişmiqyaslı təxribatlara qarşı adekvat əks-hücum əməliyyatları keçirildi. Ali Baş Komandanın rəhbərliyi altında silahlı qüvvələrin apardığı hərbi əməliyyatlar nəticəsində noyabr ayının 9-na qədər 5 şəhər, 4 qəsəbə və 286 kənd erməni işğalından azad olundu. Müxtəlif strateji və mədəni əhəmiyyətli obyekt-

lər yenidən ölkənin nəzarətinə qaytarıldı, Xudafərin körpüsü üzərində Azərbaycan bayrağı qaldırıldı, azad torpaqlara yol və digər infrastruktur obyektlərinin bərpasına başlandı. 10 noyabr tarixli üçtərəfli birgə bəyanat çərçivəsində işğal altındakı digər üç rayon Azərbaycanın nəzarətinə qaytarıldı və nəhayət, Azərbaycan Ermənistanla olan dövlət sərhədinin bərpasını təmin etdi. Ermənistan üzərində hərbi-siyasi qələbənin təntənəsi olaraq cari ilin dekabr ayında Azadlıq meydanında Zəfər paradı keçirildi. Prezident İlham Əliyevin 2020-ci ilin yekunlarına dair keçirilən müşavirədə qeyd etdiyi kimi: "Keçən ilin və nəinki keçən ilin, son 30 ilin əsas yekunu torpaqlarımızın işğaldan azad olunmasıdır. Azərbaycan 44 gün ərzində tarixi Qələbə qazanaraq öz torpaqlarını azad etdi, düşmənə sarsıdıcı zərbələr endirdi, Ermənistanı məğlub etdi. Bu məğlubiyyət nəticəsində Ermənistan məcbur olub kapitulyasiya aktına imza atıb, təslim olub və biz 3 rayonumuzu bir güllə atmadan, bir şəhid vermədən siyasi yollarla geri qaytardıq. Beləliklə, şanlı Qələbəmiz bizim güclü iradəmizi, xalqımızın güclü əzmini bütün dünyaya nümayiş etdirdi, Azərbaycan dövlətinin gücünü nümayiş etdirdi, göstərdi ki, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur".

Yekun olaraq, qarşıdan gələn 2021-ci ilin prioritet istiqamətlərindən biri işğaldan azad olunan ərazilərə böyük qayıdış və böyük quruculuq işləri ilə bağlıdır. Qeyd edək ki, 2021-ci ilin dövlət büdcəsində işğaldan azad olunan ərazilərin bərpası və yenidənqurma işlərinin aparılması üçün maliyyə təminatının yaradılması nəzərdə tutulub və bu istiqamətdə dövlət büdcəsindən 2,2 milyard manat vəsait ayrılıb. Həmçinin, dövlət büdcəsində müdafiə və təhlükəsizlik sahəsinə ayrılan vəsaitlər artırılaraq 4,6 milyard manat müəyyən olunub.

Hər il olduğu kimi, dünyanın bir sıra nüfuzlu rəy mərkəzləri lokal və qlobal səviyyələrdə 2020-ci ilin insanlara təsirini və necə keçdiyini öyrənir. Bu ənənə əsasında Sosial Tədqiqatlar Mərkəzi "2020-ci ilin qiymətləndirilməsi və növbəti ildən gözləntilər" adlı tədqiqatını lokal xüsusiyyətləri nəzərə alaraq 27-29 dekabr 2020-ci il tarixlərində telefon sorğusu vasitəsilə həyata keçirib.

Bu tədqiqatın keçirilməsinin bir neçə məqsədi var:

- Vətəndaş nəzərində 2020-ci ildə ölkəmiz və respondentlərin özləri üçün ən əlamətdar hadisələri öyrənmək;
- İnsanların müxtəlif istiqamətlər üzrə həyat məmnuniyyətini öyrənmək;
- İnsanların COVID-19 virusu əleyhinə vaksinasiyaya münasibətini müəyyən etmək;
- 2021-ci il üçün planları və növbəti ildən gözləntiləri müəyyən etmək;
- Təhsil alan respondentlərin onlayn/distant tədrisin keyfiyyəti və gələcək perspektivləri barədə fikirlərini öyrənmək.

# SORĞUNUN METODOLOJİ PRİNSİPLƏRİ

**Sorğunun əhatə dairəsi**

Sorğu Bakı, Abşeron və 7 iqtisadi rayon üzrə (Gəncə-Qazax, Şəki-Zaqatala, Lənkəran, Quba-Xaçmaz, Aran, Dağlıq Şirvan, Yuxarı Qarabağ) şəhər, rayon və kənd əhalisi arasında aparılıb.

**Respondentlərin seçimi**

Sorğuda təsadüfi üsulla seçilmiş 1050 respondent iştirak edib. Seçmənin birinci mərhələsində hər iqtisadi rayon üzrə sorğuya cəlb olunacaq respondentlərin sayı proporsional olaraq müəyyənləşdirilib. Növbəti mərhələdə hər yaşayış məntəqəsindən sorğuda iştirak etməli olan respondent sayından 10 dəfə çox sayda təsadüfi qaydada stasionar telefon nömrəsi seçilib. Seçilmiş klasterlər üzrə telefon nömrələrinin olduğu baş məcmuda hər üçüncü nömrəyə zəng edilib. İmtina hallarında növbəti üçüncü nömrə ilə əlaqə saxlanılıb.

**Tədqiqat yanaşması və sorğunun aparılma üsulu**

Tədqiqatın keçirilməsində kəmiyyət metodologiyası çərçivəsində anket sorğusundan istifadə edilib. Karantin rejiminin məhdudiyyətlərini və sorğuda iştirak edən tərəflərin sağlamlığını nəzərə alaraq, sorğuda telefon müsahibəsi tətbiq olunub. Sorğuların keçirilməsində SurveyToGo proqramından istifadə edilib. Sahə işi 2020-ci ilin 27-29 dekabr tarixlərində aparılıb. Telefon zəngləri saat 10:00-21:00 arasında həyata keçirilib.

**Etik prinsiplər**

Bütün müsahibələrdə anonimlik ciddi şəkildə təmin edilib. Respondentlər tam əmin ediliblər ki, onların cavabları yalnız ümumiləşdirilmiş şəkildə istifadə olunacaq. Bu amil sorğu nəticəsində toplanılan məlumatların yüksək etibarlılığına səbəb olub.

**Təlimat**

Sorğunun başlamasından öncə intervüyerlərə Mərkəz əməkdaşları tərəfindən təlim keçirilib. Eyni zamanda, təlim zamanı intervüyerlər anket və təlimatlarla təmin olunublar. Son olaraq isə sorğu anketindəki hər bir sual üzrə geniş izah verilib və intervüyerlər tərəfindən test sorğusu aparılıb.

**Məlumatların işlənilməsi və təhlili**

Sorğu başa çatdıqdan sonra hər bir anket üzrə birbaşa bazada toplanan məlumatlar SPSS - Statistical Package for the Social Sciences (Sosial Elmlər üzrə Statistik Proqram Paketi) vasitəsilə təhlil edilib. Təsviri analizlərlə yanaşı, dəyişənlər arasında bir sıra korrelyasiyalar (əlaqələr) müəyyənləşdirilib, həmçinin $X^2$ testindən istifadə edilib.

Seçmənin ölçüsü əsasında statistik xəta əmsalı 3%, əminlik dərəcəsi 95%-dir.

Yuvarlaqlaşdırma səbəbindən faizlərin cəmi 100%-dən fərqlənə bilər.

# RESPONDENTLƏRİN SOSİAL-DEMOQRAFİK GÖSTƏRİCİLƏRİ

## Cins tərkibi




## Təhsil səviyyəsi




## Yaş




## Məşğuliyyət




## Sorğunun keçirildiyi iqtisadi rayonlar (%-lə)



## SORĞU NƏTİCƏLƏRİNİN STATİSTİK VƏ ANALİTİK TƏHLİLİ

### I. 2020-ci ildə yaddaqalan hadisələr

Respondentlər 2020-ci ildə şəxsi həyatlarında ən yaddaqalan hadisə kimi Vətən müharibəsindəki qələbəmizi qeyd ediblər (40.9%).

***Diaqram 1.***




2020-ci ildə respondentlərin nəzərində ölkəmiz üçün ən yaddaqalan hadisələr kimi 44 günlük Vətən müharibəsi (86%) və COVID-19 pandemiyası (28%) olub ki, bu da anlaşılandır. Hər iki hadisə müəyyən mənada gözlənilməz olmaqla yanaşı, ölkədəki proseslərin gedişatına və gələcəyə dair fundamental təsirlər yaratdı.

***Diaqram 2.***




### II. 2020-ci ilin qiymətləndirilməsi

Növbəti sualda respondentlərdən 2020-ci ili nə dərəcədə uğurlu hesab edib-etməmələri soruşulub. Cari il respondentlərin üçdə ikisi üçün (70.2%) müxtəlif dərəcələrdə (52.2% "əsasən uğurlu", 19.0% "çox uğurlu") uğurlu olduğu halda, yerdə qalan 29.8% üçün uğursuz olub.

***Diaqram 3.***




COVID-19 pandemiyasının yayılması fonunda baş verən bir sıra izolyasiya tədbirləri insanların gündəlik həyatlarına təsir etməklə yanaşı, onların bir çox planlarını dəyişməsinə

və ya müəyyən müddətədək təxirə salmasına səbəb oldu. Narahatedici məqamdır ki, təxminən hər dörd nəfərdən biri (28.9%) 2020-ci il üçün nəzərdə tutduğu planların heç birini həyata keçirə bilməyib. Cəmi 43.5% respondent planlarının ya hamısını, ya da müəyyən bir qismini reallaşdıra bilib.

***Diaqram 4.***




**III. 2020-ci ildən məmnunluq səviyyəsi**

2020-ci ildə baş verən hadisələr respondentlərin həyat məmnuniyyətinə də təsir edib. Respondentlərin 67.4%-i 2020-ci il ərzində həyatından bu və ya digər dərəcədə məmnun qalıb.

***Diaqram 5.***




Respondentlərin 2020-ci ildə həyatlarından ümumi məmnunluğu öyrənilməklə yanaşı, onların həyatlarının ayrı-ayrı sahələri üzrə də məmnunluğu qiymətləndirilib.

Respondentlərdən həyatlarının müxtəlif sahələrinə dair məmnunluq dərəcəsi soruşulduqda, ən yüksək razılıq dərəcəsi ailə üzvləri ilə şəxsi münasibətlər amili üzrə müşahidə edilib (M=1,11).

Rəyi öyrənilənlər arasında ən çox narazılıq hissi iki iqtisadi məsələ ilə bağlıdır - aylıq gəlir (M=2,02) və mövcud iş vəziyyəti (M=1.67). Kişilər (M=1.72) qadınlara (M=1.60) nisbətdə işindən daha az məmnundur. Dövlət sektorunda çalışanların aylıq gəlirindən məmnunluq səviyyəsi digər qruplara nisbətdə əhəmiyyətli dərəcədə daha yüksəkdir (M=1.80). Eyni vəziyyət mövcud iş vəziyyətindən razılıq üzrə də müşahidə edilib (M=1.30). Aylıq gəlir səviyyəsindən razılıq yaş artdıqca yüksəlir (M=2.15-1.80). Təhsil səviyyəsi artdıqca respondentin aylıq gəlir səviyyəsindən razılığı da artır (M=2.15-1.90). Mövcud iş vəziyyətindən razılıq tam orta təhsillilər üçün digər qruplara nisbətdə əhəmiyyətli dərəcədə aşağıdır (M=1.90-1.55). Təhsildən razılıq dərəcəsi təhsil səviyyəsi artdıqca yüksəlir (M=1.80-1.40).

Gəncə-Qazax iqtisadi regionu aylıq gəlirə dair məmnuniyyət səviyyəsinin ən yüksək olduğu ərazi kimi də diqqət çəkir (M=1.85). Əvəzində Bakı şəhəri əks mövqedə qərarlaşıb (M=2.15). Yuxarı Qarabağ (M=1.40) iqtisadi regionundan olanlar arasında işindən məmnun olanlar daha geniş yayılıbsa, Dağlıq Şirvan (M=1.90) və Abşeron (M1.95) üçün bunun əksi qeydə alınıb.

2020-ci ilin ən böyük narahatlıqlarından biri vətəndaşların sağlamlıq durumu ilə bağlı idi. Məhz bu kontekstdə respondentlərin daha çox hissəsinin şəxsi səhhətindən müxtəlif dərəcələrdə razılığı sevindirici haldır. Yaş artdıqca sağlamlıq durumuna dair məmnuniyyət səviyyəsi azalır (M=1.95-1.25). Sağlamlıq durumuna dair ən aşağı məmnuniyyət səviyyəsi təqaüdçülər (M=1.95) ) arasında müşahidə edildiyi halda, ən müsbət göstərici tələbələr üzrə qeydə alınıb (M=1.25). Eynilə COVID-19 pandemiyasının əhalinin psixoloji vəziyyətinə təsirlərinə baxmayaraq, respondentlərin daha çox hissəsi psixoloji durumundan bu və ya digər dərəcədə razıdır. Psixoloji durumdan

*[1] Respondentlərdən həyatlarının müxtəlif sahələrinə dair məmnunluq səviyyəsi orta dəyərlə ifadə edilib. Aşağı bal daha yüksək məmnunluq ifadə edir.*

məmnuniyyət səviyyəsi 18-25 və 65+ yaş qrupları üzrə əhəmiyyətli dərəcədə daha yüksəkdir (M=1.45). Regional bölgüyə gəlincə, sağlamlıq durumuna dair məmnuniyyət səviyyəsi üzrə ən yüksək dərəcə Gəncə-Qazaxda (M=1.58), ən aşağı dərəcə isə Abşeronda (M=1.86) müşahidə edilib.

Bakıdan olan respondentlərin (M=1.50) daha çox hissəsi yaşadığı ərazinin vəziyyətindən narazıdırsa, Quba-Xaçmaz (M=1.20) və Yuxarı Qarabağ (M=1.21) regionları üzrə bunun əksi müşahidə edilib. İqtisadi rayonlar üzrə əhalinin psixoloji durumlarından məmnuniyyət səviyyəsi kəskin fərqlənməsə də, yeganə istisna hal kimi Gəncə-Qazax regionu müsbət mənada fərqlənib (M=1.20).

Şəki-Zaqataladakı respondentlərin mövcud ev şəraitindən məmnunluq səviyyəsi (M=1.75) digər bölgələrdən daha aşağıdır. Abşeron (M=1.45) və Bakıda (M=1.45) yaşayıb təhsil alanların təhsildən məmnunluğu bölgələr üzrə ən yüksək olduğu halda, Quba-Xaçmaz (M=2.25) üçün bu göstərici mənfi mənada diqqət çəkir. Son olaraq, ölkədəki vəziyyətdən ən yüksək razılıq dərəcəsi Yuxarı Qarabağ (M=1.25) iqtisadi regionundan olan respondentlər arasında müəyyən edilib.

Özünü aşağı sosial təbəqənin nümayəndəsi kimi görənlərin sağlamlıq durumuna dair məmnunluq səviyyəsi digər təbəqələrə nisbətdə əhəmiyyətli dərəcədə aşağıdır (M=2.00-1.45). Yuxarı sosial təbəqədən olan respondentlərin ev şəraitindən razılığı əhəmiyyətli dərəcədə yüksəkdir (M=1.85-1.42). Ölkədəki vəziyyətdən ən yüksək razılıq dərəcəsi özünü yuxarı sosial təbəqəyə aid edənlər arasında yayılıb (M=1.95-1.55).

Ölkədəki vəziyyətdən razılıq dərəcəsi yaş artdıqca yüksəlir (M=1.75-1.40).

***Diaqram 6.***




## IV. 2020-ci ildə insanları narahat edən məsələlər

COVID-19 pandemiyası insanların həyatının bir sıra sahələrində müəyyən problemlər yaratdı ki, bunların da arasında maddi vəziyyətin aşağı olması (36.3%), sağlamlıqla bağlı problemlər (24.3%) və işsizlik (19.1%) ilk pillələrdə qərarlaşıb. İşsizlik problemi daha çox sərt karantin rejiminin tətbiq olunduğu Bakı, Abşeron, Quba-Xaçmaz və Gəncə-Qazaxda müşahidə edilib (21-30% arası). Oxşar tendensiya maddi vəziyyətin aşağı olması problemi üçün də keçərlidir. Bununla yanaşı, Arandan olan respondentlərin 36.5%-i sağlamlıqla bağlı problemləri əsas problem kimi göstərib

ki, bu da regional cəhətdən ən yüksək göstəricidir.

Demək olar ki, hər dörd nəfərdən biri üçün sağlamlıqla bağlı problemlər cari ilin əsas problemlərindən biri kimi qarşıya çıxıb. Diqqət çəkən digər məqam odur ki, 44 günlük Vətən müharibəsinin yaratdığı narahatlıq (məsələn, potensial terror hücumu, iqtisadi çətinliklər) 13.2% respondent tərəfindən əsas problemlərdən biri kimi səsləndirilib. Təxminən hər dörd nəfərdən biri (22.1%) üçün isə 2020-ci il ərzində heç bir əhəmiyyətli problem olmayıb.

***Diaqram 7.***




COVID-19 pandemiyasının vətəndaşlar üzərindəki iqtisadi zərərlərini minimallaşdırmaq üçün qəbul edilən sosial dəstək mexanizmlərindən biri müvafiq kateqoriyadan olan insanlara verilən 190 manat birdəfəlik ödəniş olub. Azərbaycanda işsiz və ya koronavirusla mübarizə tədbirləri nəticəsində işini itirmiş şəxslər üçün nəzərdə tutulan 190 manatın verilməsi ilə bağlı bəzi problemlər müşahidə edildi. Məhz bu səbəbdəndir ki, rəyi soruşulanların müəyyən bir hissəsi (15.8%) sözügedən maliyyə vəsaitinə haqqı çatsa da, onu ala bilməyib. Nəzərə çatdıraq ki, sorğuda iştirak edənlərin daha çox hissəsi 190 manat birdəfəlik ödənişin ona aid olmadığını bildirib (68.3%). 190 manat alan respondentlər isə 16.0% təşkil edir.

Sahibkarlıq subyektlərinə verilən dəstəklə bağlı sual sorğuda iştirak edən respondentlərin 20.1%-nə (210 nəfər) verilib. Həmin respondentlərin (210) 8.6%-i sahibkarlıq subyektləri üçün nəzərdə tutulan maliyyə dəstəyi proqramından yararlansa da, nisbətən çox sayda (10.5%) sahibkar onu əldə edə bilməyib. Nəzərəçarpacaq məqamlardan biri budur ki, 13.8% respondent sözügedən dəstəyi sahibkarlıq subyekti rəsmi qeydiyyatda olmadığından ala bilməyib.

Bəs vətəndaşların nəzərində Azərbaycan üçün 2020-ci ilin ən böyük problemləri nələr idi? Gözlənildiyi kimi, böyük əksəriyyət (71.2%) COVİD-19 pandemiyasını əsas ictimai problem kimi görür. İşsizlik və müharibə nəticəsində şəhidlərin olmasını müvafiq olaraq 14.7% və 7.1% respondent tərəfindən əsas problemlərdən biri kimi göstərilib. Regional olaraq, COVİD-19 pandemiyasını əsas problem kimi qəbul edənlər Quba-Xaçmaz (90%), Aran (84.5%) və Gəncə-Qazax (83.8%) iqtisadi rayonlarınlarındadır. Yaş artdıqca sözügedən məsələni problem kimi görənlərin sayı azalır.

***Diaqram 8.***




## V. Təhsilin keyfiyyətinə münasibət və gözləntilər

2020-ci il təhsil sektoru üçün əhəmiyyətli dəyişikliklərlə yadda qaldı. Fundamental dəyişikliklərdən biri tədrisin distant formada aparılması idi ki, burada internetin keyfiyyəti istifadəçilər – müəllimlər və tələbələr/şagirdlər üçün əsas məsələlərdən biri kimi qarşıya çıxdı. Sorğuda iştirak edənlərin yarısından çoxunun (58.3%) ailəsində hazırda təhsil alan var ki, onların da əksəriyyəti (75.1%) orta məktəbdə oxuyur.

Onlayn tədrisin keyfiyyətinə dair respondentlər arasında birmənalı fikir yoxdur. Müxtəlif dərəcələrdə məmnun və qeyri-məmnun olanların çəkisi arasında 10% civarında fərq var. Olduqca narahatedici məqam bundan ibarətdir ki, təxminən 7% şagird, yaxud tələbə onlayn tədrisə qoşula bilmir.

***Diaqram 9.***




Ümumiyyətlə isə sorğuda iştirak edənlərin yarısından çoxu (54%) 2020-ci ildə internetin keyfiyyətindən müxtəlif dərəcələrdə (18.4% "tam razı qaldım", 35.6% "əsasən razı qaldım") razı qaldığı halda, 36.7% məmnun qalmayıb. Demək olar ki, respondentlərin hər on nəfərindən biri (9.3%) internetdən müntəzəm qaydada istifadə etmir. İnternetin keyfiyyətinə dair razılıq səviyyəsi yaş artdıqca yüksəlir. Başqa sözlə, ən narazı qrup 18-25 yaşda olan respondentlərdir.

***Diaqram 10.***




Sorğu müəyyən etdi ki, insanlar növbəti il ərzində tədrisin hansı formada aparılacağına dair iki qütbə bölünüb. Belə ki, 31% respondent tədrisin tamamilə distant üsulla keçiriləcəyini, 29.2% isə bunun tam əksini (sinif şəraitində) düşünür. Nisbətən daha az sayda respondent (20.3%) hər iki üsulun paralel olaraq tətbiq ediləcəyi qənaətindədir.

*Diaqram 11.*




**VI. COVID-19-un təsirləri və vaksinasiyaya münasibət**

İstər Azərbaycanda, istərsə də dünyanın bir çox ölkəsində COVID-19 virusu əleyhinə vaksinasiyaya dair birmənalı vətəndaş mövqeyi müşahidə edilmir. Sorğuda iştirak edənlərin müəyyən bir hissəsi (40.5%) peyvənd etdirəcəyini bildirsə də, nəzərəçarpacaq bir hissəsi əks mövqedən çıxış edib. Təxminən 31% respondent bu barədə qərarsızdır.

Demoqrafik cəhətdən 65 yaşdan yuxarı respondentlərin yarısından çoxu peyvənd etdirmək niyyətindədir (F=37.668(10), p<0.01). Analoji göstərici 46-55 və 56-65 yaş qrupları üçün müvafiq olaraq 44% və 48% təşkil edib. Kişilər arasında vaksinasiya etdirmək istəyi qadınlara nisbətdə daha çox yayılıb (F=24.454(2), p<0.01).

*Diaqram 12.*




Bəs 29.0% respondent hansı səbəblərdən peyvənd etdirməyi düşünmür? Vaksinasiyaya qarşı mənfi münasibətin iki əsas və bir-biri ilə müəyyən qədər əlaqəli səbəbi müəyyən edilib. Belə ki, 50.7% respondent vaksinin əks təsirlərindən qorxduğu və 41.7% respondent isə onun keyfiyyətinə etibar etmədiyi üçün peyvənd etdirməyəcəyini bildirib. Demoqrafik cəhətdən peyvəndin əks təsirlərinə dair qorxu səviyyəsi yaş qrupları üzrə demək olar ki, fərqlənməyib.

Bu nəticələrə əsasən deyə bilərik ki, əhali arasında vaksinasiyaya dair maarifləndirmə işlərinin həyata keçirilməsinə ciddi ehtiyac var. Konspirasiya nəzəriyyəsi kimi həm ölkəmiz, həm də dünyada geniş yayılan fikir – peyvənd vasitəsilə insanların idarə edilməsinə çalışılması respondentlərin heç də az olmayan hissəsi (9.6%) tərəfindən səsləndirilib.

*Diaqram 13.*




2020-ci ildə qlobal məkanda ən çox müzakirə edilən məsələlərdən biri dünyanın pandemiyadan əvvəlki vəziyyətinə nə vaxt qayıdacağı ilə bağlı idi. Rəyi soruşulanların təxminən 22.1%-i bunun ən gec aprel-iyun aylarına qədər baş verəcəyini düşünür ki, bu da onların nikbinliyindən xəbər verir. Lakin əhəmiyyətli

sayda respondent (29.4%) bu sualı cavablandırmaqda çətinlik çəkib.

***Diaqram 14.***




44 günlük Vətən müharibəsində qazandığımız qələbədən sonra əhali arasında tez-tez müzakirə edilən məsələ Xocavənd, Xocalı və Xankəndi ərazilərinin nə vaxt tamamilə Azərbaycanın nəzarətinə keçəcəyi ilə bağlı olub. Bu məsələyə münasibətdə də respondentlər iki qrupa bölünüb: 47.0% respondent 2021-ci il ərzində Azərbaycanın yerdə qalan digər ərazilərini də (Xocalı, Xocavənd, Xankəndi) tamamilə öz nəzarətinə qaytaracağını düşünür. Təxminən 38% respondent bu barədə fikir bildirə bilməyib. Cəmi 4.5% respondent bunun heç vaxt reallaşmayacağı qənaətindədir.

Pandemiya 2020-ci ildə insanların həyatını əhəmiyyətli dərəcədə dəyişib. İnsanlar əvvəl sərgilədikləri bir çox davranışları pandemiyanın yaratdığı yeni reallıqlar fonunda 2020-ci ildən artıq tərgitməyə başladılar. Bu cəhətdən rəyi öyrənilənlər arasında ən çox müşahidə edilən dəyişiklik bununla əlaqəlidir ki, 39.4% respondent evdə əvvəlkinə nisbətən daha çox qala bilir. Pandemiyanın şərtləndirdiyi sosial məsafə prinsipi insanların sosial həyatına ciddi təsir etdiyindən, 25.6% respondent üçün 2020-ci ildəki əsas fərqlərdən biri qonaq getmək və qonaq qarşılamaqla bağlı olub. Təxminən hər dörd nəfərdən biri (26.9%) əvvəlkinə nisbətən şəxsi gigiyenasına daha çox diqqət etməyə başladığını bildirib. Təxminən hər beş nəfərdən biri (22.4%) üçün isə əsas dəyişikliklərdən biri insanlarla salamlaşmaq forması ilə bağlıdır.

***Diaqram 15.***




## VII. 2021-ci ildən gözləntilər

2020-ci ilin insanların bir çoxunda yaratdığı bədbinliyə baxmayaraq, daha çox respondent (77.2%) ötən dövrlə müqayisədə 2021-ci ilin daha yaxşı olacağına inanır. Böyük ehtimalla bu inamın başlıca səbəbi həm torpaqlarımızın işğaldan azad olunması, həm də yeni növ koronavirusa qarşı peyvəndin artıq hazırlanması və yanvar ayından etibarən ölkəmizdə tətbiq ediləcəyinə dair ölkə rəhbərinin çıxışıdır. Təx-

minən 14% respondentin gələn illə bağlı hər hansı fikri formalaşmayıb.

***Diaqram 16.***




Əhalinin əsas hissəsi 2020-ci illə müqayisədə 2021-ci ilin daha yaxşı olacağına inanır və onlar müəyyən planlar da qurublar. Nisbətən geniş yayılan plan karyeraya başlamaq və ya karyeranı dəyişməklə bağlıdır (12.3%). Oxşar plan kimi maddi durumun yaxşılaşdırılması, yaxud iş tapmaq da müəyyən respondentlərin (6.4%) planlarına daxildir.

Qlobal miqyasda səyahət davranışlarının və hərəkət tendensiyasının pandemiyadan öncəki vəziyyətə qayıtması ən yaxşı halda 2023-cü ilə proqnozlaşdırılır. Bəs Azərbaycanda insanlar gələn il səyahət etməyi planlaşdırırlarmı? Cəmi 9.9% insanın səyahət etməyi planlaşdırması bir neçə amillə əlaqəli ola bilər; əhalinin əksər hissəsi səyahətin sağlamlıq nöqteyi-nəzərindən təhlükəsiz olmayacağını və karantin rejiminin səyahət üzərindəki məhdudlaşdırıcı təsirlərinin qalacağını düşünür. Eyni zamanda, müəyyən respondentlər üçün isə maddi amillər belə bir planı qurmağa mane ola bilər. Həm səyahət, həm də işlə bağlı planlar ali təhsillilər arasında tam orta təhsillilərə nisbətdə 2 dəfə daha geniş yayılıb. Maraqlıdır ki, əhəmiyyətli sayda respondentin (31.6%) 2021-ci il üçün hər hansı planı hələ ki yoxdur. Bu göstəricini pandemiyanın yaratdığı şəraitlə əlaqələndirmək mümkündür. Bu hala 56 yaş və yuxarı yaş kateqoriyasına aid respondentlər arasında dahaçox rast gəlinir (40%-dən çox). Əvəzində 18-25 yaşdakı respondentlərin cəmi 11%-i gələn il üçün plan qurmayıb.

***Diaqram 17.***




Sorğu nəticəsində əldə olunan məlumatlara əsasən deyə bilərik ki, insanlar ümumilikdə 2020-ci ili yaxşı dəyərləndirirlər. 2020-ci ilin müsbət dəyərləndirilməsinə təsir edən əsas amil Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunmasıdır. Digər müsbət hal isə insanların 2021-ci illə bağlı gözləntilərinin olması və özləri üçün planlar qurmasıdır. COVID-19-a qarşı mübarizənin effektiv aparılması, bu məsələnin birbaşa ölkə başçısının nəzarətində olması, həmçinin virus əleyhinə vaksinin artıq 2021-ci ildən tətbiq olunması ilə bağlı fikirlər insanlarda pandemiyadan əvvəlki vəziyyətə qayıdışla bağlı gözləntiləri artırıb.

# NƏTİCƏ

2020-ci il 27 ildən sonra Ermənistanın işğalı altındakı torpaqlarımızın azad edilməsi ilə təkcə Azərbaycan üçün deyil, bütün Türk dünyası üçün əlamətdar dövr olaraq yadda qaldı. Məhz bunun nəticəsidir ki, keçirilən rəy sorğularında Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması ötən dövrün müsbət dəyərləndirilməsinə təsir edən əsas amil olaraq ön plana çıxır.

❑ Respondentlərin üçdə ikisi üçün 2020-ci il uğurlu olduğu halda, hər dörd nəfərdən biri əks mövqedə qərarlaşıb.

❑ Təxminən hər dörd nəfərdən biri 2020-ci il üçün nəzərdə tutduğu planların heç birini həyata keçirə bilməyib. Əhalinin təxminən yarıya yaxını planlarının ya hamısını, ya da müəyyən bir qismini reallaşdıra bilib.

❑ Respondentlərin əhəmiyyətli hissəsi ötən dövr ərzində həyatından bu və ya digər dərəcədə məmnun qaldığını bildirib. Ən yüksək razılıq dərəcəsi ailə üzvləri ilə şəxsi münasibətlər amili üzrə müşahidə edilib. Rəyi öyrənilənlər arasında ən çox narazılıq iki iqtisadi məsələ - aylıq gəlir və mövcud iş vəziyyəti üzrə qeydə alınıb.

❑ 2020-ci ilin ən böyük narahatlıqlarından birinin vətəndaşların sağlamlıq durumu ilə bağlı olduğunu nəzərə aldıqda, respondentlərin daha çox hissəsinin rəyində şəxsi səhhətlə bağlı müxtəlif dərəcələrdə razılıq ifadəsi sevindirici haldır.

❑ COVID-19 pandemiyasının insanların həyatının bir sıra sahələrində yaratdığı problemlər arasında maddi vəziyyətin aşağı olması, sağlamlıqla bağlı problemlər və işsizlik ilk üç pillədə qərarlaşıb.

❑ Hər dörd nəfərdən biri üçün sağlamlıqla bağlı problemlər cari ilin əsas problemlərindən biri kimi qarşıya çıxıb. Təxminən hər dörd nəfərdən biri üçün 2020-ci il ərzində heç bir əhəmiyyətli problem olmayıb.

❑ Rəyi soruşulanların müəyyən bir hissəsi COVID-19 pandemiyasının vətəndaşlar üzərindəki iqtisadi zərərlərini minimallaşdırmaq üçün qəbul edilən sosial dəstək mexanizmlərindən biri olan 190 manat birdəfəlik ödənişə haqqı çatsa da, onu ala bilməyib. Daha çox kəsim isə 190 manat birdəfəlik ödənişin ona aid olmadığını bildirib.

❑ Sorğuda iştirak edən respondentlərin hər on nəfərdən biri sahibkarlıq subyektləri üçün nəzərdə tutulan maliyyə dəstəyi proqramından yararlansa da, nisbətən çox sayda sahibkar bu imkandan kənarda qalıb.

❑ Böyük əksəriyyət COVİD-19 pandemiyasını əsas ictimai problem kimi görür. İşsizlik və müharibə nəticəsində şəhidlərin olması da əsas problemlərdən biri kimi göstərilib.

❑ Onlayn tədrisin keyfiyyətinə dair müxtəlif dərəcələrdə məmnun və qeyri-məmnun olanların çəkisi arasında müəyyən fərq müşahidə edilib ki, bu da qeyd edilən istiqamətdə respondentlər arasında birmənalı fikrin olmadığını deməyə əsas verir.

❑ Ümumiyyətlə, sorğuda iştirak edənlərin yarısından çoxu 2020-ci ildə internetin keyfiyyətindən müxtəlif dərəcələrdə razı qaldığı halda, təxminən hər üç respondentdən biri bundan narazılığını ifadə edib. Demək olar ki, respondentlərin hər on nəfərindən biri internetdən müntəzəm qaydada istifadə etmir.

❑ Təxminən hər üç respondentdən biri növbəti il ərzində tədrisin tamamilə distant üsulla keçiriləcəyini düşündüyü halda, hər dörd respondentdən biri isə bunun əksinə olaraq tədrisin sinif şəraitində keçiriləcəyi qənaətindədir. Nisbətən daha az sayda respondent hər iki üsulun paralel olaraq tətbiq ediləcəyi qənaətindədir.

❑ Sorğuda iştirak edənlərin müəyyən bir hissəsi peyvənd etdirəcəyini bildirsə də, nəzərəçarpacaq bir hissə əks mövqedən çıxış edib. Təxminən hər üç nəfərdən biri bu barədə qərarsız mövqedədir.

❑ Əhalinin təxminən yarıya yaxını vaksinin əks təsirlərindən qorxduğu, müəyyən bir hissəsi isə onun keyfiyyətinə etibar etmədiyi üçün peyvənd etdirməyəcəyini bildirib.

❑ Rəyi soruşulanların təxminən hər dörd nəfərindən biri dünyanın pandemiyadan əvvəlki vəziyyətinə ən gec aprel-iyun aylarına qədər qayıdacağını düşünür ki, bu da onların nikbinliyindən xəbər verir.

❑ Sorğuda iştirak edənlərin təxminən yarıya yaxını 2021-ci il ərzində Azərbaycanın

yerdə qalan digər ərazilərini də (Xocalı, Xocavənd, Xankəndi) tamamilə öz nəzarətinə qaytaracağı qənaətindədir.

❑ Rəyi öyrənilənlər arasında pandemiyanın yaratdığı yeni reallıqlar fonunda hər üç nəfərdən biri evdə əvvəlkinə nisbətən daha çox qala bilir. Təxminən hər dörd nəfərdən biri üçün 2020-ci ildəki əsas fərqlərdən biri qonaq getmək və qonaq qarşılamaqla bağlı olub. Həmçinin eyni sayda respondent əvvəlki illərə nisbətən şəxsi gigiyenasına daha çox diqqət edir.

❑ Ötən dövrün insanların bir çoxunda yaratdığı bədbinliyə baxmayaraq, əhalinin əsas hissəsi 2020-ci illə müqayisədə 2021-ci ilin daha yaxşı olacağına inanır və onlar müəyyən planlar da qurublar. Nisbətən geniş yayılan plan karyeraya başlamaq və ya karyeranı dəyişməklə bağlıdır.

## QEYDLƏR

STM

SOSİAL
TƏDQİQATLAR
MƏRKƏZİ

Azərbaycan Respublikası, AZ1006, Bakı şəhəri, Yasamal rayonu, İsmayıl bəy Qutqaşınlı küç.,18
Telefon: (+994 12) 510-70-78; (+994 12) 510-23-75; (+994 12) 510-70-69

info@stm.az www.stm.az